Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Əhməd Cəfəroğlu dünyası

**Əhməd Cəfəroğlunun 120 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2019**

**Tərtibçilər:** **Aynurə Əliyeva**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Əhməd Cəfəroğlu dünyası:** Əhməd Cəfəroğlunun 120 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad. Respublika Uşaq Kitabxanası ; tərt.ed. A.Əliyeva; ixt.red. və burax.məsul Ş. Qəmbərova ; red. K. Ağazadə. - Bakı : F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2019. - 19 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2019**

## Tərtibçidən

Başına döndüyüm, qurban olduğum,
Get, Qəribim, sağlıq ilə gələsən!
Oduna yandığım, büryan olduğum,
Get, Qəribim, sağlıq ilə gələsən!..

Müstəqillik dönəmində cəmiyyətimizdə baş vermiş kökü ictimai-siyasi dəyişikliklər ədəbiyyat və ümumən mədəniyyət tariximizin bir sıra mühüm problemlərinə yenidən baxılmasına, həmçinin məlum ideoloji qadağalar nəticəsində uzun müddət araşdırmadan kənarda qalmış sahələrin tədqiqata cəlb olunmasına şərait yaranmışdır. Belə sahələrdən biri də müəyyən tarixi-siyasi səbəblərdən Azərbaycanı tərk etmək məcburiyyətində qalmış sənətkarlar və ədiblər tərəfindən yaradılmış mühacirət ədəbiyyatıdır.

XX əsrin əvvəllərində Azərbaycan üçün ən ağır zərbələrdən biri də yüzlərlə elm-bilim adamının mühacirət etməsi oldu. Əslində bu dövr Azərbaycanda “beyin axını” nın başlanğıcı idi. Həmin intellektuallarımız Vətənimizdə yaşayıb-yaratsaydılar, bu gün Azərbaycan elmin inkişaf səviyyəsinə görə daha da yüksəkdə durardı. Çünki qürbətdə yaşamaq məcburiyyətində olan bu Vətən oğulları ömürlərinin sonuna kimi qələmi əldən yerə qoymayıb, daimi intellektual yaradıcılıqla məşğul olublar. O mühacirlərdən biri də 20-ci yüzil Azərbaycan filoloji fikrinin dünyaca məşhur nümayəndələrindən olan Əhməd Cəfəroğludur. Belə dəyərli şəxslərin həyat və yaradıcılığını öyrənmək, bizdən sonra gələn soylara çatdırmaq sabahımız üçün çox gərəklidir.

Uzun illər hətta mütəxəssislər üçün də naməlum qalmış bu ədəbiyyatın öyrənilməsi və geniş ictimaiyyətə çatdırılmasının əhəmiyyəti özlüyündə aydındır. Belə ki, harada meydana çıxmasından asılı olmayaraq, hər hansı xalqın mənəvi irsinin ayrılmaz tərkib hissəsidir və onun öyrənilməsi ən azı həmin

ədəbi irs haqqında təsəvvürün düzgünlüyü və bütövlüyü üçün zəruridir. Təbii ki, bu ədəbiyyatın öyrənilməsində ən vacib iş onun başlıca nümayəndələrinin ictimai fəaliyyətinə, elmi-ədəbi yaradıcılığına dair xüsusi, dərin və hərtərəfli araşdırmaların həyata keçirilməsindən ibarət olmalıdır.

Ziyalı qələm sahibi Əhməd Cəfəroğlunun 120 illik yubileyi münasibətilə yazılmış bu vəsaiti işləməyi özümüzə borc bildik. Vəsait iki hissədən ibarətdir. I hissə *"Dünyaca məşhur nümayəndələrdən olan Əhməd Cəfəroğlu"* adlanır və alimin nakam həyatından bəhs edir. II hissədə isə onun yaradıcılığından bəhs edən tədbirlərdən söhbət açılır.

## Həyat və yaradıcılığı

Əhməd Cəfəroğlu 1899-cu ildə Gəncədə anadan olub. Üç yaşında atasını itirib. 1905-ci ildə erməni-müsəlman davası qalxanda ailəsi Səmərqəndə köçür. Əhməd ilk təhsilini orada alır, sonradan Gəncəyə qayıdırlar. 1909-1916-cı illərdə Gəncə gimnaziyasında təhsil alır. Sonra Kiyev Ali Ticarət İnstitutunun iqtisad fakültəsinə daxil olur, üç semestr oxuya bilir. Həmin dövr situasiya ilə bağlı 1918-ci ilin ortalarında yenidən Gəncəyə qayıdır. Ə.Cəfəroğlu Gəncədə istiqlal mübarizəsinə qoşulur. Nuru Paşanın Qafqaz İslam Ordusuna üzv olur. 1918-ci il sentyabrın 15-də Bakını Azərbaycanın paytaxtı elan edənlərin arasında kiçik topçu zabiti kimi iştirak edir.

Əhməd yenicə açılan Bakı universitetinin (1919) tarix-filologiya fakültəsinin Şərq bölməsinə daxil olur. Bu universitet də yarımçıq qalır, o Gürcüstana, oradan da Türkiyəyə keçir. İstanbul Universitetinin dil-ədəbiyyat fakültəsinə daxil olur. Ünlü türkoloq Mehmet Fuad Köprülüdən dərs alır və axır ki, bu universiteti bitirir (1925). Bir il işlədikdən sonra yeni şans yaranır: Xarici İşlər Nazirliyinin təqaüdçüsü kimi Berlin və Breslan universitetlərinə göndərilir, tanınmış türkoloqların

mühazirələrini dinləyir. 1929-cu ildə Əhməd Cəfəroğlu İstanbul Universitetinə filologiya doktoru kimi dönür. Əvvəlcə türk dili tarixi kafedrasının dosenti, professor olur, 1946-cı ildən Mehmet Fuad Köprülünün ölümündən sonra kafedra müdiri olur. Əhməd bəy həm də universitetin yanında fəaliyyət göstərən Türkiyyat İnstitutuna rəhbərlik edirdi. 1923-1969-cu illər arasında Əhməd bəyin müxtəlif ölkələrdə və dillərdə 350 əsəri çıxıb. Cəfəroğlu Avropanın aparıcı universitetlərində türk dilinə və türkologiyaya dair mühazirələr oxuyub. Roma universitetində bir müddət çalışıb da. Dünyanın ən məşhur elmi cəmiyyətlərinin, akademiyalarının üzvü idi. Əhməd Cəfəroğlu bir sıra türk dillərindən başqa, rus, fars, alman, fransız dillərini yaxşı bilirmiş.

Əhməd Cəfəroğlunun "Azəri ədəbiyyatında istiqlal mücadiləsi" kitabı Türk Dil Qurumunun həqiqi üzvü idi. 30-cu illərdə bu qurumun Mustafa Kamal Atatürkün iştirakı ilə keçirilən toplantılarına da qatılıb. Türk Dil Qurumunun həqiqi üzvü olan Əhməd Cəfəroğlu 1955-ci ildə İspaniya hökumətinin "De Alfonso Xel Sabio" ordeni ilə təltif olunur. "Azərbaycan Yurd bilgisi" dərgisinin (1932) yaradıcısı və baş redaktoru idi.

"Türk amacı" dərgisinin (1942-1943), "Türk dili və ədəbiyyatı məcmuəsinin" redaktoru olub. Əhməd bəy uzun illər Azərbaycan siyasi mühacirətinin fəallarından olub.

Cəfəroğlu bu qədər işin içində imkan tapıb Azərbaycan ədəbiyyatı tarixini, folklorunu da araşdırıb. Onlardan "Azərbaycan xalq ədəbiyyatında Aşıq Qərib dastanı", "XVII əsr Azəri şairi Məlik bəy Avçı", "Böyük Azəri türkçüsü Mirzə Fətəli" və s. adlarını çəkmək olar. Onun Türk dil tarixi və türk dialektologiyasına dair araşdırmaları təkrar-təkrar çap edilərək, indiyədək dərslik kimi istifadə olunur.

Əhməd bəy 76 yaşını tamamlaya bilmədi. 1975-ci il yanvarın 6-da Vətəni görmədən dünyadan köçdü.

## Yubiley tədbirlərinin keçirilməsi

Görkəmli alimin anadan olmasının 120 illik yubileyi ilə əlaqədar olaraq, bir sıra tədbirlər: kitab müzakirəsi, oxucu konfransı, rəsm və şeir müsabiqəsi, icmal, dəyirmi masa, ədəbi-bədii gecə keçirilə bilər. Şairi sevdirmək, yaradıcılığını gənc nəslə və şagirdlərə tanıtmaq məqsədilə kitabxanada kitab sərgisi təşkil olunmalıdır. Sərgiyə müxtəlif başlıqlar verilə bilər: "Əhməd Cəfəroğlu dünyası", "XX əsr Azərbaycan filologiyasının parlaq səhifəsi – Cəfəroğlu", "Azərbaycanşünaslığın banilərindən biri – Əhməd Cəfəroğlu", "Azəri ədəbiyyatında istiqlal mücadiləsi", "Azərbaycan türkçülüyü ideyası – Əhməd Cəfəroğlu", "Dünyaca məşhur nümayəndələrdən olan Əhməd Cəfəroğlu", "İspaniya hökumətindən orden alan azərbaycanlı professor – Əhməd Cəfəroğlu", "Azərbaycanı dünyaya tanıdan Əhməd Cəfəroğlu" və s.






## Görkəmli şəxiyyətlər Əhməd Cəfəroğlu haqqında

O, kitablardan öyrənən, qulaqdan duyan bir türkçü yox, bütün varlığıyla türkçülüyün tanıdıcısı idi. O, öz dili ilə türkçü olduğunu söyləməzdi. Gördüyü işlər buna sübutdu.

**Səadət Cağatay,**
*professor*

Əhməd Cəfəroğlu dilçilik, ədəbiyyatşünaslıq, etnoqrafiya, folklorşünaslıq və s. sahələrdəki araşdırmaları ilə təkcə Türkiyədə deyil, eləcə də Avropada şöhrətlənib... O, 1930-1950-ci illərdə daha çox milli-mənəvi yaddaş problemlərini diqqət önündə saxlayan işlərlə məşğul olub. Gəncə kimi zəngin folklor mühitindən çıxan bu insan mühacirətə təkcə Vətən sevgisi ilə dolu ürəyini yox, həm də zəngin folklor yaddaşını aparıb.

**Gülağa Hüseynov**,
*tədqiqatçı*

Türkologiya elminə töhfələr verən alimlər arasında məşhur dilçi, ədəbiyyatşünas və şərqşünas Əhməd Cəfəroğlunun adı hörmətlə yad olunur. Ömrü mühacirətdə keçən alim ölkəmizin beynəlxalq aləmdə tanınmasında da rol oynayıb.

**Savalan Fərəcov,**
*jurnalist*

Əhməd Cəfəroğlunun 120 illik yubileyi ilə əlaqədar kitabxanalarda keçiriləcək tədbirlərdən biri *"Əhməd Cəfəroğlu dünyası"* adlı **dəyirmi masa** ola bilər. Tədbir oxucuların iştirakı ilə kitabxanada keçirilir. İlk olararaq kitabxanaçı səhnəyə çıxıb qonaqları salamlayır və sonra Əhməd Cəfəroğlu yaradıcılığı haqqında qısa məlumat verir.

**Kitabxanaçı:** Azərbaycan Cümhuriyyətinin işğalından sonra Türkiyəyə mühacirət edənlərdən biri də gənc Əhməd Cəfəroğlu idi. O, 1899-cu ildə Gəncədə anadan olub, üç yaşında ikən atasını itirib, anasının və qohumlarının himayəsində yaşayıb. Cümhuriyyət elan olunanda Əhməd Cəfəroğlunun 19 yaşı var idi. Könüllü olaraq Nuru paşanın Qafqaz İslam ordusuna qoşulmuşdu. Kiçik topçu zabit idi. Sentyabrın 15-də Bakıya qalib kimi daxil olan qoşunun sıralarında o da var idi. Bir il sonra universitet yaradılarkən oranın Tarix-Filologiya fakültəsində dinləyicilərdən olur. Cümhuriyyətin işğalından sonra Əhməd Cəfəroğlu Türkiyəyə mühacirətə gedir.

Əhməd Cəfəroğlunun publisistikasında 27 aprel faciəsi bir neçə dəfə xatırlanıb. Cümhuriyyətin işğalının 13-cü ilində yazdığı "Azərbaycanın böyük matəmi – 27 nisan 1920" adlı məqaləsində yazır: "1920-ci ilin 27 nisanında böyük türk dünyasının köksündə hürriyyət bayrağını ilk qaldıran bir türk ölkəsinin ocağı sönmüş, Azərbaycan – Odlu yurd qırmızı ruslar tərəfindən işğal edilmişdi".

27 aprellə bağlı digər bir yazısında Cəfəroğlu qeyd edirdi: "Zavallı Azərbaycan! Çəkmədiyin qalmadı. Uğurlu, şanlı, sevincli günlərin qara günlərə çevrildi. Müqəddəs üçrəngli bayrağının yerinə yabancı əllərin oraq-çəkicli bayrağı qaldırıldı. İstiqlal idealı yerinə istila ruzigarları əsdirildi".

Cümhuriyyətin 10 və 15 illiyi ilə bağlı yazdığı məqalələrdə isə milliyyətçi Azərbaycan gəncliyinin bir gün rusları məğlub edəcəyi ilə bağlı inanclı fikirlər söyləyirdi. Türkiyədə Cəfəroğlu İstanbul Universitetinin Dil-Ədəbiyyat fakültəsinə daxil olur, 1924-cü ildə oranı bitirir. 1925-ci ildə Almaniya universitetlərində türkologiya sahəsində təcrübə qazanmağa yollanır, orada dövrün tanınmış alimləri olan Vesterman, Banq Koup, Vasmer, Gizi, Brokelman, Şader, Diels kimi şəxslərin mühazirələrini dinləyir. 1929-cu ildə Breslau universitetində

professor F.Gizinin rəhbərliyi altında “Gəncə dialektində 75 Azərbaycan bayatı-türküsü. Bir dil araşdırması” mövzusunda dissertasiya müdafiə edərək filologiya doktoru adını qazanır. Türkiyəyə döndükdən sonra İstanbul universitetinin ədəbiyyat fakültəsində “Türk dili tarixi” kafedrasının dosenti olur. 1938-ci ildə həmin kafedranın professoru, 1946-cı ildən ömrünün axırına qədər isə oranın müdiri vəzifəsində çalışır. Bu müddət ərzində o, yüzlərlə elmi yazılar yazır, türkologiya sahəsində mühüm işlər görür. Polşa Şərqşünaslar Cəmiyyətinin üzvü (1937), Polşa Elmlər Akademiyasının müxbir üzvü (1938) seçilir. Həmçinin bir neçə beynəlxalq cəmiyyətlərdə təmsil olunur, “Azərbaycan yurd bilgisi”, “Türk amacı” kimi dərgilər təsis edir.

Əhməd Cəfəroğlunun məqalələrində Azərbaycan önəmli yer tutur. “Azərbaycan tarixinə ümumi bir baxış”, “Avropa səyyahlarına görə XVII əsr Azərbaycanı” adlı məqalələrində Azərbaycanın tarixinə, “Aşıq Qərib dastanı”, “XVI əsr saz şairlərindən Tufarqanlı Abbas”, “Azərbaycan xalq ədəbiyyatında sayaçı sözlər” adlı yazılarında folklor məsələlərinə toxunub. Dilçilik və dil tarixinə aid yüzlərlə məqaləsində dilimizin ləhcələrinə xüsusi yer verib.

Kazım bəy, Axundzadə, Qaspıralı haqqında Əhməd Cəfəroğlu Azərbaycan tarixində önəmli yer tutan iki aydına ayrıca məqalə həsr edib. Mirzə Kazım bəy haqqında məqaləsində yazır ki, türk dilləri içində Azərbaycan türklərinin danışdığı ləhcə ilk dəfə onun sayəsində elmi şəkildə tədqiq olunub. Həmçinin Kazım bəyin türk dilində qəzet təsis etməsini və bunun digər türk xalqlarını ortaq bir türkcəyə gətirəcəyinə səsləyən fikirlərini təqdir edən Cəfəroğlu onun ideyasının yarım əsr keçəndən sonra İsmayıl bəy Qaspıralı tərəfindən həyata keçirildiyini vurğulayır. Ə.Cəfəroğlu Mirzə Fətəli Axundzadə haqqında yazdığı yazıda da əsas diqqəti onun əlifba islahatına yönəldir: “...Mirzə Fətəli ümumtürk filologiyasını və

mədəniyyət tarixini maraqlandıran əsas problem – ərəb əlifbasının islahı və müasir latın əlifbasının türk xalqlarının yazısına tətbiqi məsələsi ilə yaxından məşğul olan ilk türk ziyalısı kimi tarixdə layiqli yerini tutub".

Cəfəroğlu bildirir ki, Azərbaycan Cümhuriyyəti Axundzadənin bu ideyasını həyata keçirmək üçün latın əlifbası məsələsini tədqiq edən komissiya yaradıb, lakin bolşevik işğalı bu prosesi yarımçıq qoyub. "Tərcüman" qəzetinin çap olunduğu 23 aprel tarixini bütün türk ellərinin milli bayramı hesab edən Cəfəroğlu türklük davasının kiçik Krımın böyük övladı olan İsmayıl Qaspıralının əli ilə böyüdüyünü, daha geniş sahələrə yayıldığını yazırdı: "Türk aləmi bu qəzet vasitəsilə bir-birinin vəziyyətlərindən xəbərdar oldu. "Tərcüman" bu yolda türk birliyinin şah damarı vəzifəsini öz üzərinə götürdü".

Əhməd Cəfəroğlu vətənindən didərgin düşərkən gənc idi. Türkiyə ona professor ünvanına qədər, hər şeyi bəxş etdi. Bunun müqabilində Cəfəroğlu Azərbaycan türklüyünün təkcə keçmişini öyrənməklə qalmadı, həmçinin müasir dönəmini də izlədi, əsərlərində buna toxundu. "Modern Azərbaycan ədəbiyyatına toplu bir baxış" adlı məqaləsində Axundzadədən başlayaraq Mirvarid Dilbaziyə qədər geniş bir dönəmə toxunur, Səməd Vurğunun, Süleyman Rüstəmin, Mehdi Hüseynin, Sabit Rəhmanın adını sayğı ilə hallandırır: "Azəri türk şairləri içərisində, heç olmazsa, adlarının ötəri xatırlanmasını zəruri saydığımız qadın şairlər Nigar Rəfibəyli və Mirvarid Dilbazidir".

Sovet Azərbaycanındakı ziyalılar onu tanıyırdı, lakin adını müsbətə hallandırmaq DTK zindanında çürüməyə bərabər idi. 75 illik yubileyində Sovet Azərbaycanının qəzetlərində onun əleyhinə kəskin fikirlər səsləndirilir.

1975-ci il yanvarın 6-da isə dəyərli alim əbədiyyətə qovuşur.

XX əsr Azərbaycan ictimai, elmi və ədəbi fikir tarixinin ən görkəmli nümayəndələrindən biri də Əhməd Cəfəroğludur. Məlum siyasi səbəblərdən vətənini tərk edib ömrünün əsas hissəsini Türkiyədə yaşamağa məcbur olmuş, lakin doğma torpaqlarına bağlılığını bir an da itirməmiş bu parlaq şəxsiyyətin zəngin və çoxcəhətli yaradıcılığı, məhsuldar ictimai və pedaqoji fəaliyyəti, təəssüf ki, çox az öyrənilmişdir. Son illər bu sahədə atılmış addımları yalnız gərəkli bir işin başlanğıcı saymaq olar. Odur ki, Əhməd Cəfəroğlunun elmi, ədəbi və publisistik yaradıcılığının dərindən öyrənilib qiymətləndirilməsi və öz xalqına çatdırılması çağdaş elmimizin mühüm vəzifələrindən biri hesab olunmalıdır.

Yüksək və nadir tədqiqatçılıq keyfiyyətlərinə malik olan Ə.Cəfəroğlunun yaradıcılığı humanitar biliyin olduqca müxtəlif sahələrini əhatə edir. Yarım əsrlik elmi-pedaqoji fəaliyyəti nəticəsində dünya türkologiyasının aparıcı simalarından birinə çevrilmiş böyük həmyerlimizin yaradıcılığında Azərbaycanla bağlı araşdırmalar mühüm yer tutur. Mübağiləsiz olaraq, Ə.Cəfəroğlunu elmi azərbaycanşünaslığın banilərindən biri saymaq lazımdır. O, türk dünyasının mühüm və ayrılmaz bir hissəsi saydığı vətəninin tarixinə, mədəniyyətinə, etnoqrafiyasına, dilinə, şifahi və yazılı ədəbiyyatına dair onlarla əsərin müəllifidir. Bu əsərlər Azərbaycanın tanıdılması, onun mədəniyyətinin təbliği sahəsində böyük rol oynamışdır. Onlar istər ehtiva etdiyi material, istər irəli sürdüyü ideyalar, istərsə tədqiqat metodikası baxımından bu gün də elmi və idrakı dəyərini qoruyub saxlamaqdadır. Əhməd Cəfəroğlunun Azərbaycanla bağlı araşdırmaları içərisində onun ədəbiyyatşünaslıq irsi mühüm yer tutur. Fitri filoloji istedada malik olan alimlər istər yazılı, istərsə də şifahi ədəbiyyatı xalqın tarixini, ictimai-siyasi və estetik görüşlərini, əxlaq və təfəkkür

tərzini sözün geniş mənasında mədəniyyətini əks etdirən ən etibarlı sənəd kimi araşdırılır və uğurlu nəticələrə gəlirdi.

Əsas profili etibarilə dilçi-türkoloq olan  Əhməd Cəfəroğlu Azərbaycan folkloruna xüsusi maraq göstərirdi. O, şifahi xalq ədəbiyyatını həm xalqın bədii təfəkkür xüsusiyyətlərini, estetik ideallarını yaşadan yaradıcılıq faktı kimi, nəzərdən keçirirdi. Bu araşdırmalarda ədəbiyyatşünaslıq və dilçilik metodları üzvi şəkildə çuğlayır, çulğaşır və səmərəli nəticələrə gətirib çıxarırdı. Əhməd Cəfəroğlunun folklorumuza dair tədqiqatları həm mifoloji materialı, həm monumental epik abidələr olan dastanları ("Dədə Qorqud", "Aşıq Qərib", "Qaçaq Nəbi" ), həm də aşıq poeziyasını (Qurbani, Abbas Tufarqanlı, Dədə Qasım) əhatə edir.  Bu tədqiqatlarda o, yalnız bir araşdırıcı kimi çıxış etmir. Onun nəşr etdiyi folklor materialları bir sıra orijinal cəhətləri ilə maraq doğurur.

Əhməd Cəfəroğlu ədəbiyyat tariximizlə bağlı sanballı və ciddi elmi tədqiqatların müəllifidir. O, Azərbaycan ədəbiyyatı tarixinin ümumi məsələləri və nəzəri problemlərinə, onun ayrı-ayrı görkəmli nümayəndələrinin yaradıcılığına ondan artıq əsər həsr etmişdir. Alimin milli ədəbiyyatımızın çoxəsirlik və mürəkkəb tarixinə konseptual baxışını əks etdirən "Azərbaycan dili və ədəbiyyatının dönüm nöqtələri" adlı geniş tədqiqatı ədəbiyyatımızın min illik inkişaf prosesini işıqlandırır və bu gün də böyük əhəmiyyət kəsb edən elmi dövrləşdirməsini verir. Onun ayrı-ayrı ədəbi dövr və şəxsiyyətlərə verdiyi yığcam və dəqiq xarakteristika həmin məsələyə dair bir sıra elmi baxışları qabaqlamışdır. Əsər müəllifin güclü professorluq duyğusuna, ədəbi faktları geniş mədəni kontekstdə nəzərdən keçirmək qabiliyyətinə, ayrı-ayrı sənətkarları tarixi-ictimai perspektivdə qiymətləndirmək bacarığına malik olduğunu parlaq şəkildə nümayiş etdirir.

Folklorşünaslıq sahəsində olduğu kimi ədəbiyyat tariximizlə bağlı tədqiqatlarında da Əhməd Cəfəroğlu bir sıra orijinal mətnləri elmi istifadə dairəsinə daxil edir. Alimin XVII əsr şairi Məlik bəy Ovçu, XIX əsr şairi Siraci haqqında tədqiqatları isə əsl elmi kəşf xarakteri daşıyır.

Əhməd Cəfəroğlunun ədəbiyyatşünaslıq irsində onun M.F.Axundovla bağlı araşdırmaları xüsusi yer tutur. Bu araşdırmalar böyük mütəfəkkirin milli ictimai və ədəbi fikir tariximizdəki mövqeyini daha dərindən, düzgün və obyektiv anlamaq baxımından son dərəcə qiymətlidir.

Alimin M.H.Şəhriyar yaradıcılığına dair araşdırması geniş, dərin və sanballı əsərlərindən biri sayıla bilər.

Əhməd Cəfəroğlunun ədəbiyyatşünaslıq irsinin təhlili göstərir ki, onun bu sahədəki tədqiqatları tematik diapazonu baxımından olduqca geniş, tədqiq və təhlil üsullarına görə rəngarəngdir. Naməlum ədəbi mətnlərin nəşri və şəhrindən tutmuş poetik dil və üslub üzərində incə təhlillərə qədər əhatəli bir araşdırmacılıq metodikasına malik olan Ə.Cəfəroğlu bütün hallarda tədqiqat obyektinə yeni və orjinal baxışı ilə seçilir. İdeoloji ehkamlardan və nəzəri qəliblərdən uzaq olan alimin əsərləri klassik filologiyanın parlaq nümunələri kimi diqqət cəlb edir. Milli ədəbiyyatşünaslığımızın dəyərli ənənələrini davam və inkişaf etdirən, onu yeni keyfiyyətlərlə zənginləşdirən Əhməd Cəfəroğlunun yaradıcılığı, şübhəsiz, XX əsr elmi-tənqidi fikrimizdə bütöv bir mərhələ təşkil edir.

Kitabxanada keçiriləcək ənənəvi tədbir forması kimi **kitab müzakirəsi** də keçirilə bilər. Oxucuların istəyini nəzərə alan kitabxanaçı oxucularla birgə Elşən Əbdülhəsənlinin Əhməd Cəfəroğlu yaradıcılığına həsr etdiyi *"Əhməd Cəfəroğlunun ədəbiyyatşünaslıq irsi"* adlı kitabını müzakirə edə bilər. Kitabxanaçı əvvəlcə adı çəkilən bu kitab haqqında məlumat verir: Filologiya elmləri namizədi Elşən Əbdülhəsənlinin (1899-

1975) ədəbiyyatşünaslıq irsinin təhlilinə həsr olunmuşdur. Kitabda həyatının əsas hissəsini mühacirətdə yaşamalı olmuş alimin ömür yolu, elmi yaradıcılığının əsas istiqamətləri, naşirlik və pedaqoqluq fəaliyyəti və müasir ədəbiyyatımıza dair tədqiqatları geniş şəkildə araşdırılmış, bu tədqiqatların elmi yeniliyi və nəzəri-metodoloji əsasları çağdaş ədəbiyyatşünaslıq baxımından dəyərləndirilmişdir Kitab tədqiqatçılar, ali məktəblərin müəllim və tələbələri üçün nəzərdə tutulmuşdur.

Kitabxanada keçiriləcək tədbirlərdən ən möhtəşəmi ədəbi-bədii gecədir. Əhməd Cəfəroğlunun xatirəsinə həsr olunmuş *"Əhməd Cəfəroğlunun ədəbiyyatşünaslıq obrazı"* adlı **ədəbi–bədii gecəyə** Azərbaycanın görkəmli ediblərini, sənət-söz adamlarını dəvət etmək olar. Tədbir iştirakçıları kitab sərgisi ilə tanış olduqdan sonra zalda əyləşirlər. Türkoloq, alim Əhməd Cəfəroğlunun həyat və yaradıcılığından bəhs edən slaytdan sonra tədbiri açıq elan etmək üçün aparıcılar səhnəyə daxil olurlar.

*I aparıcı:* Filologiya elmləri namizədi, araşdırmaçı Elşən Əbülhəsənli "Əhməd Cəfəroğlunun ədəbiyyatşünaslıq irsi" kitabında alimin həyat və yaradıcılığı haqda maraqlı faktlar yer alıb. O hesab edir ki, Ə.Cəfəroğlunun adı onilliklər boyu həmvətənləri üçün naməlum qalsa da, istər onun ömrünün sonuna qədər yaşayıb-yaratdığı Türkiyədə, istərsə də Avropa və Amerikanın elmi dairələrində böyük alimin şəxsiyyəti tanınıb, ictimai-pedaqoji və elmi fəaliyyəti yüksək qiymətləndirilib: "Artıq 50-ci illərin sonlarından başlayaraq Ə.Cəfəroğlu haqqında meydana çıxan və nüfuzlu araşdırmaçıların qələminə məxsus yazılar onun dünya türkologiyasının inkişafındakı rolu və özünəməxsus mövqeyinin etiraf olunması demək idi".

*II aparıcı:* Azərbaycanda Ə.Cəfəroğlu ilə bağlı yazılar yalnız son dövrdə mətbuat səhifələrində görünməyə başlayıb. 1990-cı ildə "Xəzər" dərgisi, ilk dəfə olaraq tarix elmləri namizədi

Hüsaməddin Məmmədovun təqdimatı və ön sözü ilə məşhur türk yazıçısı Samim Qocagözün öz müəllimi Ə.Cəfəroğlu barədə xatirəsini dərc edib. Lakin Ə.Cəfəroğlunun elmi-ədəbi ictimaiyyətə, həmçinin geniş oxucu kütləsinə tanıdılması sahəsində ilk ciddi addım professor Vilayət Quliyevin 1991-ci ilin martında "Ədəbiyyat qəzeti" ndə dərc edilmiş irihəcmli məqaləsi oldu. Gərgin axtarışların məhsulu olan bu məqalədə Dünya elmi dairələrində yaxşı tanınan Ə.Cəfəroğlunun ömür yolu barədə müfəssəl məlumat verilir, Azərbaycan ədəbiyyatı tarixinə və folklorşünaslığına dair tədqiqatlarından bəhs olunur. Araşdırmaçı bu qənaətdədir ki, 80 illik ömründə Ə.Cəfəroğlu elmin zirvəsinə ucala bilmişdi: "Bu zirvənin arxasında müxtəlif elm sahələrində gərgin axtarışlarla, məhsuldar fəaliyyətlə, mübarizələrlə dolu keşməkeşli bir həyat dayanır".

*I aparıcı:* Uzun illər hətta mütəxəssislər üçün də naməlum qalmış bu ədəbiyyatın öyrənilməsi və geniş ictimaiyyətə çatdırılmasının əhəmiyyəti özlüyündə aydındır. Belə ki, harada meydana çıxmasından asılı olmayaraq, hər hansı xalqın mənəvi irsinin ayrılmaz tərkib hissəsidir və onun öyrənilməsi ən azı həmin ədəbi irs haqqında təsəvvürün düzgünlüyü və bütövlüyü üçün zəruridir. Təbii ki, bu ədəbiyyatın öyrənilməsində ən vacib iş onun başlıca nümayəndələrinin ictimai fəaliyyətinə, elmi-ədəbi yaradıcılığına dair xüsusi, dərin və hərtərəfli araşdırmaların həyata keçirilməsindən ibarət olmalıdır.

*II aparıcı:* Azərbaycan mühacirət ədəbiyyatının ictimai və pedaqoji fəaliyyətinin zənginliyi və genişliyi, elmi yaradıcılığının miqyası və məhsuldarlığı baxımından bu cür xüsusi tədqiqatlara layiq simalarından olan və ömrünün ictimai-siyasi təlatümləri nəticəsində gənc ikən vətəndən ayrı düşmüş, qürbətdə şərəfli həyat yolu keçmiş Əhməd Cəfəroğlu XX əsr Azərbaycan ictimai, elmi və bədii fikir tarixinin ən görkəmli nümayəndələrindən biri sayılmalıdır. Həyatının əsas

hissəsini doğma yurdundan kənarda keçirsə də, o, bir an belə Azərbaycanın siyasi və mədəni həyatına biganə qalmamış, xalqının dilinə, ədəbiyyatına, tarix və etnoqrafiyasına dair saysız-hesabsız elmi əsərlər həsr etməklə, çoxlarına nümunə ola biləcək bir şəkildə öz milli borcunu yerinə yetirmişdir.

*I aparıcı:* Əhməd Cəfəroğlunun elmi-ədəbi, publisistik yaradıcılığının dərindən öyrənilib qiymətləndirilməsi və öz xalqına çatdırılması çağdaş elmimizin qarşısında duran mühüm və təxirəsalınmaz vəzifələrdən biri sayılmalıdır. Belə ki, ensiklopedik zəkaya və heyrətamiz erudisiyaya malik Əhməd Cəfəroğlunun yaradıcılığı olduqca müxtəlif elm sahələrini əhatə edir.

*II aparıcı:* Əhməd Cəfəroğlunun adı onilliklər boyu həmvətənləri üçün naməlum qalsa da, istər onun ömrünün sonuna qədər yaşayıb-yaratdığı Türkiyədə, istərsə də Avropada və Amerikanın elmi dairələrində böyük alimin şəxsiyyəti bəlli olmuş, ictimai pedaqoji və elmi fəaliyyəti yüksək qiymətləndirilmişdir. Artıq 50-ci illərin sonlarından başlayaraq Əhməd Cəfəroğlu haqqında meydana çıxan və nüfuzlu tədqiqatçıların qələminə məxsus yazılar onun dünya türkologiyasının inkişafındakı rolu və özünəməxsus mövqeyininin etiraf olunması demək idi.

*I aparıcı:* 1975-ci ilin yanvarında Əhməd Cəfəroğlu vəfat etdikdən sonra Türkiyə mətbuatında bir-birin ardınca məqalələr dərc olundu. Bu məqalələrdə alimin ölümü dünya türkologiyası üçün əvəzsiz itki kimi qiymətləndirilməklə yanaşı, onun artıq tarixə çevrilmiş ictimai fəaliyyəti, çoxşaxəli elmi yaradıcılığı geniş təhlil edilirdi. Haqqında danışdığımız bu araşdırmalar özlüyündə çox dəyərli olsalar da, Ə.Cəfəroğlunun böyük şəxsiyyətinin, universal elmi yaradıcılığının dərki və qiymətləndirilməsi sahəsindəki işin yalnız başlanğıcı sayıla bilər. Və bu araşdırmalarda Ə.Cəfəroğlunun ədəbiyyatşünaslıq

irsinə toxunulsa da, həmin məsələyə dair xüsusi tədqiqata rast gəlmirik. Bu mənada oxuculara təqdim olunan bu kitab Ə.Cəfəroğlunun bir ədəbiyyatşünas kimi dərkinə yönəlmiş ilk təşəbbüs sayılmalıdır.

*II aparıcı:* Çığrışdı bir ağızdan
Dün gecə
Azərbaycanlı quşlar, duymadınız.
Apağ kəsildi buz kimi
Dün gecə
"Uyğur dili sözlüyü", duymadınız.
Axdı bilim ölkəsinin göylərindən
Dün gecə
Ulduzu sevginin, duymadınız
Öylə səssizdi ki,
Dün gecə
Gəncəli Nizami türbəsi duymadınız
Öldü
Dün gecə
Əhməd Cəfəroğlu, duymadınız!

*Fazil Hüsnü Dağlarca*

## Ədəbiyyat siyahısı

**Əbdülhəsənli E.** Əhməd Cəfəroğlunun ədəbiyyatşünaslıq irsi. – Bakı : Azərnəşr, 2006. – 132 s.

**Əhməd D.** Mühacir professor : Əhməd Cəfəroğlu // Fərqlilər. – Bakı : Teas-Press, 2015. – S. 163-166.

# Əhməd Cəfəroğlu dünyası

(metodik vəsait)

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 17
Çapa imzalanmışdır: 18.03.2019
Tirajı:100
Pulsuz